# Müstəqillik dövründə Azərbaycan iqtisadiyatı

Ziyəddin Məmmədov (UNEC Qiyabi və Əlavə Təhsil Mərkəzi tələbəsi)

1980-ci illərin ortalarından bütün dünyada baş verən sosial siyasi hadisələr və Mixail Qorbaçov tərfindən həyata keçirilən "qlasnost" siyasəti SSRİ-nin dağılması və tərkibindəki respublikaların müstəqil olması ilə nəticələndi. Bu ölkələrdən biri olan Azərbaycanın Milli Məclisi 31 Avqust 1991-ci ildə ölkənin müstəqilliyini elan etdi, 18 Oktyabr 1991-ci ildə isə Milli Məclis "Müstəqillik Aktı"nı qəbul etdi.

1985-1991-ci illərdə SSRİ-nin ümumi iqtisadi çöküşü Azərbaycana da təsirsiz ötüşməmişdi və ölkə iqtisadiyyatı getdikcə zəifləməyə başlamışdı. Müstəqillik əldə edildikdən sonra Azərbaycan iqtisadiyyatı ikinci keçid dövrünü yaşadı. Belə ki, 1920-1937-ci illərdə kapitalizmdən sosializmə olan birinci keçid dövrünü çətinliklərlə yaşayan Azərbaycan ikinci keçid dövrünü – sosializmdən kapitalizmə keçidi də eyni çətinliklərlə yaşadı. Ticarətdə tənəzzül, Moskva tərəfindən maliyyələşmənin dayandırılması, bazar iqtisadiyyatına keçid, kommunistlərin yaratdığı Qarabağ problemi və Azərbaycanın zorla Ermənistanla müharibəyə cəlb edilməsi və torpaqlarının 20%-nin işğal edilməsi, 1 milyondan artıq əhalinin məcburi köçkün vəziyyətinə düşməsi ikinci keçid dövründə inkişafa mane olan faktorlardan idi.

Çətinliklərə baxmayaraq ikinci keçid dövrünün birinciyə nisbətən üstün cəhətləri də var idi. Belə ki, ikinci keçid dövründə Azərbaycan inzibati-amirlik sistemindən daha mütərəqqi olan bazar iqtisadiyyatına keçməyi strateji məqsəd kimi qəbul etmişdi. Bundan əlavə birinci keçid dövründə Azərbaycan SSRİ-nin müstəmləkəsi idisə ikinci keçid dövründə müstəqil dövlət kimi Azərbaycan öz iqtisadiyyatını milli mənafeyinə uyğun şəkildə qurmağa imkan tapmışdı. Keçidlər arasındakı digər bir fərq isə ondan ibarətdir ki, birinci keçid dövründə marksist-leninçi iqtisadi təlimi ilə silahlanmış bolşeviklər və kommunistlər sahibkarları, ziyalıları məhv etmək, iqtisadi fəaliyyət azadlığını onların əllərindən almaq yolunu seçərək qısa müddətdə kapitalizmdən sosializmə keçməyi qarşılarına məqsəd qoymuşdularsa ikinci keçid dövründə Azərbaycan dövləti iqtisadi fəaliyyət

azadlığına şərait yaratmış, bazar iqtisadi sisteminin inkişafını təmin edən qanunlar qəbul etmiş və onun həyata keçirilməsinə məhdudiyyət qoyulmamış və təkamül inkişaf yolu ilə bazar iqtisadi sisteminin formalaşdırılmasına əlverişli şərait yaradılmışdır.

İkinci keçid dövrünün ilk illərində I Qarabağ müharibəsi ilə yanaşı Rusiyanın da Azərbaycana nəqliyyat embarqosu qoyması iki neft boru xəttinin istifadə oluna bilməməsinə gətirib çıxardı və bütün bunlar iqtisadi vəziyyətə mənfi təsir göstərdi. Qısacası, 1991-1994-cü illər müstəqillikdən sonra bütün problemlərlə üz-üzə qalındığı, ölkədə sosial və siyasi problemlərin böhrana çevrildiyi bir dövr olmuşdur. İqtisadiyyatdakı mənfi gedişatda ən kəskin hal isə, 1992-ci ildə ortaya çıxdı. 1992-94-cü illərdə ÜDM iki dəfədən çox azalaraq 1991-ci ilin 48%-i nisbətində olmuşdur. 1990-94-cü illərdə ÜDM hər il ortalama 13-20% azalaraq 1994-cü ildə 1629.3 milyon dollar olmuşdur.

Azərbaycan xalqı 1993-cü ilin may-iyununda Heydər Əliyevin hakimiyyətə gətirilməsi üçün ayağa qalxdı. Bu, əsl mənada, milli hərəkata çevrildi, Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra ölkə iqtisadiyyatında köklü dəyişikliklər aparılmasına başlandı. Azərbaycan Respublikasının iqtisadiyyatını dirçəltmək üçün strategiya hazırlandı və bu strategiyada neft faktoruna üstünlük verildi.

20 sentyabr 1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri - Amerikanın "AMOKO", "Yunokal", "Pennzoyl", "Makdermot", Böyük Britaniyanın "Britiş Petroleum" və "Remko", Norveçin "Statoyl" Rusiyanın "LUKoyl", Türkiyənin "Türk petrolları", Səudiyyə Ərəbistanının "Delta" şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Sonradan müqaviləyə Yaponiyanın "İtoçu", Amerikanın "Eksson" və "Amerada Hess" şirkətləri də qoşuldu. Ümummilli lider

Heydər Əliyev bu mühüm hadisəni yüksək qiymətləndirərək demişdir: «Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq».

İlkin neft layihəsi üzrə Azəri-Çıraq-Günəşli dəniz yataqlarında nəzərdə tutulan bütün işlər yerinə yetirildi. Həmçinin "Çıraq-1" dəniz platformasının tikintisi yekunlaşdırıldı və neft hasil edən ilk quyu qazıldı. "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi nəhəng dəniz qazma qurğuları istifadəyə verildi. Qısa bir zamanda Çıraq yatağının sürətlə işlənməyə daxil edilməsi respublika üzrə neft hasilatının artımına səbəb oldu. 1997-ci ildə 9 milyon ton neft hasil edildiyi halda 1998-ci ildə artıq respublika üzrə neftin hasilatı 11,4 milyon ton, 1999-cu ildə - 13,8 milyon ton, 2000-ci ildə - 14,5 milyon tona çatdı.

17 aprel 1999-cu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə uzunluğu 850 kilometr və illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Çıraq yatağından hasil olunan neftin "Azəri Layt" adı altında Supsa limanından dünya bazarlarına ixrac edilməsinə başlandı və ilk dəfə olaraq Azərbaycan nefti şimala yox, qərb istiqamətində axmağa başladı.

18 noyabr 1999-cu ildə İstanbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzaladılar.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uzaqgörənliyi və yürütdüyü uğurlu siyasət nəticəsində 1994-cü il sentyabrın 20-də

imzalanmış müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft sazişi olan “Əsrin müqaviləsi” iqtisadiyyatımızın inkişafının əsasını qoydu. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il 16 avqust tarixli Fərmanına əsasən hər il sentyabrın 20-nin "Neftçilər günü" peşə bayramı kimi qeyd olunması qərara alınmışdır.

İqtisadi sistemin yenidən qurulması baxımından ən mühüm addımlardan bir digəri isə ölkənin sosial, siyasi və iqtisadi həyatında yeni dövrün başlanğıcı olaraq ilk konstitusiyasının qəbul edilməsi oldu. Konstitusiya ilə özəl mülkiyyətin, özəl sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının hüquqi əsası müəyyən edildi. 20 sentyabr 1994-cü ildə “Əsrin Müqaviləsi”nin imzalanması və 12 noyabr 1995-ci ildə konstitusiyanın qəbul edilməsi ilə birlikdə ölkəyə böyük həcmdə xarici sərmayə daxil olmağa başladı. Bu baxımdan Azərbaycanda iqtisadi tənzimləmələrin başlanğıc ili 1995-ci il qəbul edilə bilər.

Ümummilli lider Heydər Əliyevin iqtidara gəlməsi ilə əldə olunan siyasi stabilliyin və aparılan islahatların nəticəsində iqtisadiyyatın inkişaf etdirilməsi kursu 2003-cü ildən sonrakı dövrdə Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin hakimiyyətə gəlməsi ilə uğurla davam etdirilməkdədir.

Prezident İlham Əliyev tərəfindən 11 fevral 2004-cü ildə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar “Dövlət Proqramı” təsdiqləndi. Bu proqramla Azərbaycanda başda kənd təsərrüfatı sektoru olmaqla qeyri-neft sektorlarını canlandırmaq və inkişaf etdirmək, bununla da ölkədə məşğulluq səviyyəsini artıraraq xalqın gəlir səviyyəsinin və həyat standardının artırılmasına nail olmaq üçün atılan ən vacib addımlardan biri oldu. Proqram çərçivəsində 46 respublika miqyaslı, 668 region miqyaslı tədbir həyata keçirilmiş, 2008-ci ilə qədər, yəni 4 il ərzində çox hissəsi daimi olmaqla 600 minə yaxın iş yeri açılmışdır.

29 yanvar 2018-ci ildə ”Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekununa həsr olunmuş konfransda ölkə Prezidenti İlham Əliyev qeyd etmişdir ki, ″Dövlət

Proqramları"nın tətbiq olunduğu 14 il ərzində iqtisadiyyatımız 3,2 dəfə, qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə, sənaye iqtisadiyyatı 2,6 dəfə, valyuta ehtiyatlarımız 23 dəfə artmış, yoxsulluğun səviyyəsi 50 faizdən 5,4 faizə, işsizliyin səviyyəsi isə 5 faizə enmişdir. 14 il müddətində 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmişdir. 12300 kilometr avtomobil yolu çəkilmiş, 30 elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Sözügedən konfransda İlham Əliyev dördüncü proqram haqqında da məlumat vermişdir: "...Bütövlükdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının Dövlət proqramlarının icrası çox uğurla gedir. Bu il üçüncü Dövlət Proqramının icrası başa çatır və biz dördüncü proqramın hazırlanması ilə bağlı işlərə başlamalıyıq".

Ümummilli lider Heydər Əliyevin başlatdığı siyasəti layiqli davamçısı İlham Əliyevin sürdüməsi ilə 1993-cü ildən günümüzə qədər iqtisadiyyatın inkişaf etdirilməsi digər sahələrin də böyüməsində mühüm rol oynamışdır. Təkmilləşmiş ordunun qurulması, müasir hərbi silah və texnikaların alınması yürüdülən düzgün siyasətin nəticəsində iqtisadiyyatın inkişafı hesabına olmuşdur. Bunun nəticəsidir ki, hakimiyyətə gəldiyi ilk gündən etibarən tək məqsədinin Azərbaycanın bütövlüyü, suverenliyi və inkişafı olduğunu bildirən Prezident və Ali Baş Komandan İlham Əliyevin başçılığı altında Azərbaycanın rəşadətli ordusu 27 senytabr 2020-ci il tarixində "Dəmir yumruq" əks-hücum əməliyyatı ilə başlayan 44 günlük II Qarabağ – Vətən müharibəsində 30 ilə yaxın təcavüzkar erməni işğalı altında qalan 20% torpaqlarımızı – Dağlıq Qarabağ və ətraf rayonlarımızı geri qaytarmış və verdiyi sözü tutaraq Azərbaycanın bütövlüyünü təmin etmişdir və bununla da iki əsrdən çoxdur davam edən erməni terrorçuluğuna, təcavzkarlığına, torpaq iddialarına birdəfəlik son qoymuşdur. 2904 igidimizin canından keçərək şəhidlik zirvəsinə çatdığı və qələbə ilə nəticələnən Vətən Müharibəsindən sonra əsas hədəf Qarabağın yenidən dirçəldilməsidir. "Qarabağ ölkəmizin ən gözəl və bərəkətli regionlarından biridir. Bu regionun perspektivləri Azərbaycanın davamlı inkişafı üçün çox vacib olacaq. Regionun bərpası ilə bağlı bizi çox böyük işlər gözləyir. Biz bütün bu yerləri bərpa edəcəyik. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün planlar var. Necə ki, torpaqlarımızı

qaytardıq, düşməni məhv etdik, üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik.” İlham Əliyev bu sözləri ilə Qarabağın Azərbaycan üçün nə qədər vacib bir bölgə olduğun vurğulamışdır. 10 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bəyanatından və Azərbaycanın bütün torpaqlarının işğaldan azad olunması ilə qələbəsinin rəsmiləşməsindən qısa müddət sonra Qarabağda quruculuq işlərinə başlanıldı. Qələbədən 11 ay keçməsinə və düşmən tərəfin minaların xəritəsini hələ də verməməsinə baxmayaraq bir çox ərazilər minalardan təmizlənmiş, yollar bərpa edilmiş və nəzərdə tutulmuş 3 aeroportdan biri – Füzuli Beynəlxalq Havalimanı istifadəyə verilmiş və ilk uçuş baş tutmuşdur. Vətən Müharibəsinin və bu kimi quruculuq işlərinin dünyanı bürümüş iqtisadi böhranın və koronavirus pandemiyasının mövcud olduğu bir vaxtda baş verməsi Azərbaycanın öz hədəflərinə düzgün istiqamətdə irəlilədiyini bir daha nümayiş etdirdi.

Qarabağ Azərbaycanın ümumi iqtisadiyyatında da mühüm rol oyanacaq. Belə ki, işğaldan azad olunmuş ərazilər dəmir, civə, xrom, mərmər, əhəng daşı, qızıl və mineral sular başda olmaqla 3 qızıl mədəni yatağı, 4 civə və antimon yatağı kimi təbii ehtiyatlar baxımından olduqca zəngindir. Həmçinin Ağdam rayonu ərazisindəki Çobandağ yatağı 140 milyon ton əhəng  və 20 milyon ton gillə, Şahbulaq yatağı 25 milyon ton gillə, Boyəhmədli yatağı 45 milyon ton gillə zəngindir. Bundan başqa Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Ümumiyyətlə isə, Azərbaycan Respublikasının işğaldan azad olumuş ərazilərində 561 yataq, təzahür və perspektivli minerallaşma sahəsi müəyyən edilmişdi.

Ölkə prezidenti İlham Əliyevin göstərişləri ilə işğaldan azad olunan ərazilərdə 30 ilə yaxın müddətdə erməni vəhşiliklərinə məruz qalmış təbii ehtiyatlar, kənd təsərrüfatı, turizm sektoru, ümumiyyətlə sosial-iqtisadi həyat yenidən dirçəldilərək ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyaya əsaslanaraq yürütdüyü siyasətə əsasən demək olar ki, önümüzdəki illərdə də Azərbaycan iqtisadiyyatı dünyada gedən iqtisadi böhranlardan mənfi təsirlənməyəcək və dinamik inkişafını davam etdirəcəkdir.